# XAN ÇİNARI

*Əli Rza Xələflinin "Bir çinarın hekayəsi" şeiri əsasında*

Keçmişdən bu günədək ədəbiyyatımızda bağrı vətən həsrəti ilə yanıb tutuşan onlarla ədiblərimizin XXI əsrdəki xələflərindən biri də Əlirza Xələflidir. Cəbrayılda dünyaya göz açan şair, əfsus ki, öz ana torpağından uzaq düşmüş, vətən, el-oba həsrəti onun qəlbinin incə tellərini sızlatmış, bu tellərdən qopan ah-nalə isə ədibin əsərlərində dilə gəlmişdir. Əlirza müəllimin yaradıcılığında vətən həsrəti bir qırmızı xətt kimi keçir, onun hər misrasında özünə yer tapır. Kredo qəzetinin 33-cü sayında çap olunan "Bir çinar hekayəsi" şeiri də müəllifin bu səpkidə yazdığı qiymətli əsərlərindən biridir.

"Araz qırağı" poemasından bir parça olan şeir avtobioqrafik xarakter daşıyır. Lakin müəllif burda sadəcə öz avtobioqrafiyasını deyil, sanki öz ana yurdunun avtobioqrafiyasını verir. Əsərdə hadisələr keçmiş və bu gün kontekstində dəyərləndirilir. Şeir müəllifin uşaqlıq çağının əmanəti olan Xan Çinara həsr olunub. Xan Çinarı ifadəsinin işlənməsinə səbəb isə çinarın el arasında böyüklük, ucalıq, məğrurluq kimi rəmzi mənalar ifadə etməsidir. Bu ağaclara həmişə ehtiram göstərilər, onlara zərər yetirmək inanca görə günah sayılardı. Cəbrayılda erməni işğalına qədər iri diametrli, yaşı 400-500 il olan 14 çinar ağacı olub. Bu ağaclar əsrlərin sirlərini öz bağrında gizlədib. Bu ağaclar Vətənin ikiyə bölünməsinin şahidi olub. Xan Çinarı dərdli elə sirdaş olub, el oğluna qardaş olub. Əlirza müəllim Xan Çinarını öz el-obasının simvolu kimi dəyərləndirir və çinarın timsalında uzaq düşdüyü yurduna həsrətini ifadə edir.

Qədimlərdən bizdə el adətidir yeni doğulan körpənin adına ağac əkmək. Bu ağacın uşağın həyatına sevinc, səadət gətirəcəyinə inanılırdı. Müəllifin əsərinin qəhrəmanı olan çinar da adi çinar deyil. Bu o doğulanda onun adına əkilmiş, onunla birgə boy atmış uşaqlıq yadigarı, vətənini əmanət qoyub gəldiyi çinardır. Bu çinar onun tale ağacıdır. Əfsus ki, bu çinarın taleyi həsrət qələmiylə yazıldı:

*Araz qırağında yeri göynəyən,*
*Yaddaşın bir çinar hekayəti var.*
*Axşamda, səhərdə qapımı döyən,*
*Uşaqlıq çağımın əmanəti var.*

Şeirin ilk misralarından yaralı bir qəlbin fəryadı duyulur. Müəllif boya-başa çatdığı yurduna ancaq yuxularında baş çəkə bilir. Bəs, görəsən, yuxularında gördüyü yurdu həmin səfalı, bağlı-bağatlı yurdudurmu? Qətiyyən. Şairin yurdunda yellər əsir. Yurdun bağçası-bağı şəhid qanıyla sulanır. Xan Çinarlar fəryad qopararaq küləklərlə səs-səsə verib bu taydan o taya baş alıb gedir. Artıq ağaclar meyvə yerinə dərd yetirir. O səfalı yurd xarabaya çevrilib:

*Bayquşlar cer-cehiz sevdası üstə,*
*Diş-diş divarların bağrı yanırdı!..*
*Yarayar, nə qədər xaraba istə;*
*"Sirlər Xəzinəsi" alovlanırdı.*

Müəllifin burda "Sirlər Xəzinə"sinə işarə etməsi heç də əbəs deyil. Cer-cehiz qiymətli, zinətli şeylərdən olur. Bir tərəfdən şair vətənimizin dillərə dastan sərvətinə, şanına, şöhrətinə işarə edir, digər tərəfdən də vətənimizi gözü götürməyən bayquşların uzun əsrlərdən bəri onu xarabaya çevirməyə çalışdığını ifadə edir. Axı müəllif çinarlar yurdunun övladıdır. O çinarlar bayquşlar tərəfindən xarabaya çevrilmiş, quzğunlar tərəfindən parçalanmış yurdumuzun fəlakətlərinin şahidi olublar. Dərd-qəm dəryası Arazdan su içmiş çinarların qoynunda yetişən bir övlad bu faciələrə biganə qala bilməz:

*Küştü tutduq, cəng aradıq, nə fayda?*
*Mən qəmləri, qəmlər məni ötmədi.*
*Həsrət məndə, vüsal qalıb o tayda,*
*Ha çağırdım, harayıma yetmədi.*

Ədib sadəcə dərd çəkməklə kifayətlənməyi düşünmür. O, qəlbindəki səsə haray verərək bütün vətən övladlarını cəngə çağırır. Çünki bu cəng sənin, mənim, onun, bunun deyil, bütün millətin cəngidir:

*Şəhid oğullarla nəfəs-nəfəsə,*
*Zamanın özünə sinə gərək biz.*

Ədibin qəlbində hələ yazılmayan bir kitab var: "Xan Çinarı". Xan Çinarıyla bağlı bir əfsanədə deyilir ki, göyün üzünü qara buludlar alır. Ağaclar qara buludların çəkilmədiyini, güllərin, çiçəklərin günəş işığı olmadan solub məhv olduğunu görürlər, amma heç nə edə bilmirlər. Axırda onlar 7 qardaş çinar ağaclarından kömək istəyirlər. Çinarlar sərin sulardan içib boy atır, göydəki buludlara çatır və onları qovur. Günəş işığı yenidən bütün təbiəti aydınladır.

Biz də arzu edirik ki, bir gün adına çinar əkilən vətən övladları birləşərək yurdumuzun üstündəki qara buludları məhv edər, şəhidlərimizin ruhu şad olar, əziz müəllif də həmin "Xan Çinar"ı kitabını bu hadisəyə həsr edər.



***Elnurə əflatun***